Non official translation / Qeyri-rəsmi tərcümə*

# AVROPA ŞURASI
## NAZİRLƏR KOMİTƏSİ

**Daxili hüquqi müdafiə vasitələrinin təkmilləşdirilməsinə dair Nazirlər Komitəsinin üzv dövlətlərə *Rec(2004)6* saylı Tövsiyəsi**

*(Nazirlər Komitəsi tərəfindən 12 may 2004-cü ildə onun 114-cü sessiyasında qəbul edilmişdir)*

Nazirlər Komitəsi, Avropa Şurası Nizamnaməsinin 15-ci maddəsinin “b” bəndinin müddəalarına uyğun olaraq,

Avropa Şurasının məqsədinin onun üzvləri arasında daha böyük birliyə nail olmaq olduğunu və bu məqsədin həyata keçirilməsinin ən mühüm üsullarından birinin insan hüquqlarının və əsas azadlıqların qorunmasından və bundan sonra da həyata keçirilməsindən ibarət olduğunu nəzərə alaraq;

İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiyanın (bundan sonra “Konvensiya” adlandırılacaq) Avropada insan hüquqlarının müdafiəsi üçün əsas istinadedici sənəd olaraq qalacağına əminliyini təkrarən bildirərək və Konvensiyanın müəyyən etdiyi nəzarət sisteminin uzunmüddətli səmərəliliyini təmin etmək üçün tədbirlər görməyi öhdəsinə götürdüyünü xatırladaraq;

Konvensiyanın 1-ci maddəsinə uyğun olaraq, Konvensiyanın bərqərar etdiyi nəzarət mexanizminin yardımçı xarakter daşıdığını, yəni Konvensiya ilə təmin edilən hüquq və azadlıqların ilk növbədə milli səviyyədə qorunmasını və bunun milli hakimiyyət orqanları tərəfindən həyata keçirilməsini nəzərdə tutduğunu xatırladaraq;

Bu kontekstdə Konvensiyanın indi bütün iştirakçı dövlətlərin daxili hüquq sisteminin ayrılmaz hissəsinə çevrildiyini təqdir edərək;

Konvensiyanın 13-cü maddəsinin tələb etdiyi kimi, üzv dövlətlərin Konvensiyada təsbit edilmiş hüquq və azadlıqlarının pozulması ilə bağlı əsaslı şikayəti olan hər kəsin milli hakimiyyət orqanı qarşısında səmərəli hüquqi müdafiə vasitəsinə malik olmasını təmin etməyi öhdəsinə götürdüyünü vurğulayaraq;

İnsan Hüquqlarına dair Avropa Məhkəməsindəki (bundan sonra “Məhkəmə” adlandırılacaq) presedent hüququnun işığında bu cür səmərəli hüquqi müdafiə vasitələrinin mövcudluğunu təmin etmək öhdəliyindən əlavə, dövlətlərin aşkar edilmiş pozuntuların kökündə duran problemləri həll etməkdən ibarət ümumi öhdəliyinin olduğunu xatırladaraq;

Daxili hüquqi müdafiə vasitələrinin qanunvericilik və praktikada səmərəli olmasını, habelə onların şikayətin mahiyyəti üzrə qərar qəbul edilməsi və aşkar edilmiş hər hansı pozuntunun adekvat kompensasiya olunması ilə nəticələnə bilməsini üzv dövlətlərin təmin etməli olduqlarını vurğulayaraq;

Məhkəməyə verilən ərizələrin xarakterinin və sayının və onun çıxardığı qərarların bu cür hüquqi müdafiə vasitələrinin mövcudluğunun üzv dövlətlər tərəfindən bütün hallarda, xüsusən də məhkəmə icraatı əsassız olaraq uzadıldığı hallarda faktiki və mütəmadi olaraq yoxlanılmasının həmişəkindən daha artıq zəruri olduğunu göstərdiyini qeyd edərək;

---

** Azərbaycan dilinə qeyri-rəsmi tərcümə ingilis dilindəki orijinal mətnin əsasında icra olunmuşdur. Mətn Avropa Şurasının icazəsi ilə tərtib və istifadə edilmişdir. Bu sənəd Avropa Şurası ilə razılaşma əsasında, lakin yalnız tərcüməçinin(lərin)/naşirlərin məsuliyyət daşıması ilə dərc olunur. Mətnin tərcüməsi Avropa Şurasının “Avropa Məhkəməsi qərarlarının Azərbaycan tərəfindən icrasının gücləndirilməsinə dəstək” layihəsi çərçivəsində həyata keçirilmişdir.*

Konvensiyanın pozulması ilə bağlı bütün əsaslı iddialar üzrə səmərəli daxili hüquqi müdafiə vasitələrinin mövcudluğunun bir tərəfdən Məhkəməyə verilən işlərin sayının azalmasına və nəticədə Məhkəmənin iş yükünün yüngülləşməsinə imkan verəcəyini, digər tərəfdən isə işlərin milli səviyyədə ətraflı şəkildə araşdırılmasının onlara sonradan Məhkəmə tərəfindən baxılmasını asanlaşdıracağını nəzərə alaraq;

Xüsusən təkrarlanan şikayətlərlə bağlı milli səviyyədə hüquqi müdafiə vasitələrinin təkmilləşdirilməsinin Məhkəmənin iş yükünün azaldılmasına töhfə verəcəyini vurğulayaraq;

Üzv dövlətlərə tövsiyə edir ki, Əlavədə göstərilən müsbət təcrübə nümunələrini nəzərə alaraq:

I. Məhkəmənin presedent hüququnun işığında Konvensiyanın pozulması ilə bağlı əsaslı şikayəti olan hər kəs üçün daxili hüquqi müdafiə vasitələrinin mövcudluğunu və bu hüquqi müdafiə vasitələrinin səmərəliliyini, yəni onların şikayətin mahiyyəti üzrə qərar qəbul edilməsi və aşkar edilmiş hər hansı pozuntunun adekvat kompensasiya olunması ilə nəticələnə bilməsini daim yoxlasınlar;

II. milli qanunvericilik və ya praktikada struktur xarakterli və ya ümumi çatışmazlıqların olduğunu göstərən Məhkəmə qərarlarından sonra mövcud daxili hüquqi müdafiə vasitələrinin səmərəliliyinə yenidən baxsınlar və zərurət olarsa, təkrarlanan şikayətlərin Məhkəməyə təqdim edilməsinin qarşısını almaq üçün səmərəli hüquqi müdafiə vasitələri təsis etsinlər;

III. yuxarıda qeyd olunan I və II bəndlərə münasibətdə, məhkəmə icraatlarının həddindən artıq uzun sürməsi barədə əsaslı şikayətlə bağlı səmərəli hüquqi müdafiə vasitələrinin mövcudluğuna xüsusi diqqət yetirsinlər;

Avropa Şurasının Baş katibinə bu Tövsiyənin həyata keçirilməsində yardım istəyən üzv dövlətlərə lazımi yardım üçün zəruri resursların ayrılmasını təmin etməyi tapşırır.

## ***Rec(2004)6*** saylı Tövsiyəyə Əlavə

## Giriş

1. İnsan hüquqları haqqında Avropa Konvensiyasının (bundan sonra "Konvensiya" adlandırılacaq) 50-ci ildönümünü qeyd etmək üçün 2000-ci il noyabrın 3-də və 4-də Romada keçirilmiş Nazirlər Konfransında[1] vurğulanmışdır ki, Konvensiyada təsbit olunmuş hüquq və azadlıqlara riayət edilməsinin təmin olunmasımna görə ilk növbədə iştirakçı dövlətlər cavabdehlik daşıyırlar və onlar pozuntuların qarşısını almaq və lazım gəldikdə onları aradan qaldırmaq üçün zəruri olan hüquqi alətləri təmin etməlidirlər. Bu, xüsusən Konvensiyanın 13-cü maddəsinə uyğun olaraq,[2] Konvensiyanın bütün pozuntularına münasibətdə səmərəli daxili hüquqi müdafiə vasitələrinin təsis edilməsini zəruri edir. Avropa İnsan Hüquqları Məhkəməsi (bundan sonra "Məhkəmə" adlandırılacaq) özünün presedent hüququnda[3] Konvensiyanın iştirakçısı olan dövlətlərin üzərinə düşən bu öhdəliyin əhatə dairəsinə aydınlıq gətirərək konkret olaraq qeyd etmişdir ki:

– 13-cü maddə Konvensiya ilə müəyyən edilmiş hüquq və azadlıqları təmin etmək üçün daxili qanunvericilikdə hüquqi müdafiə vasitələrinin mövcudluğuna təminat verir;

---

[1] Avropa Nazirlərinin İnsan Hüquqları üzrə Konfransı; bax: milli və Avropa səviyyələrində insan hüquqlarının müdafiəsi üçün institusional və funksional tədbirlər haqqında 1 saylı Qətnamənin 14.i bəndi, A bölməsi ("Üzv dövlətlərdə Konvensiyanın tətbiqinin təkmilləşdirilməsi").
[2] 13-cü maddədə deyilir: "Bu Konvensiyada təsbit olunmuş hüquq və azadlıqları pozulan hər kəs ... dövlət orqanları qarşısında səmərəli hüquqi müdafiə vasitələrinə malikdir". Qeyd etmək lazımdır ki, bu Əlavədə substantiv hüquqlardan, məsələn, 2 və 3-cü maddələrdə nəzərdə tutulmuş hüquqlardan irəli gələn prosessual təminatlara xüsusi istinad yoxdur.
[3] Misal üçün bax: *Conka Belçikaya qarşı* iş üzrə 5 fevral 2002-ci il tarixli qərar (64-cü və sonrakı bəndlər).

– bu maddə Konvensiya əsasında hər hansı “əsaslı iddianı” mahiyyəti üzrə araşdırmaq və müvafiq təzminatı təmin etmək üçün hüquqi müdafiə vasitəsinin mövcud olmasını tələb edir. Bu öhdəliyin əhatə dairəsi şikayətin xarakterindən asılı olaraq dəyişir. Bununla belə, tələb olunan hüquqi müdafiə vasitəsi həm qanunvericilikdə, həm də praktikada “səmərəli” olmalıdır;

– bu maddə xüsusən həmin vasitənin Konvensiyaya zidd olan və nəticələrini sonradan aradan qaldırmaq qeyri-mümkün olan tədbirlərin həyata keçirilməsinin qarşısını almaq iqtidarında olmasını tələb edir;

– 13-cü maddədə qeyd edilən “orqanın” hökmən məhkəmə orqanı olması şərt deyil, amma o, məhkəmə orqanı olmazsa, onun təqdim etdiyi hüquqi müdafiə vasitəsinin həqiqətən səmərəli olub-olmadığını müəyyən etmək üçün onun səlahiyyətləri və verdiyi təminatlar əhəmiyyət kəsb edir;

– “hüquqi müdafiə vasitəsinin” 13-cü maddədə nəzərdə tutulan mənada “səmərəliliyi” ərizəçi üçün əlverişli nəticənin əldə ediləcəyinə əminlikdən asılı deyil; bununla belə, o, ən azı müəyyən operativlik tələbini nəzərdə tutur.

2. Əsassız olaraq uzun sürən icraatlarla bağlı bu cür hüquqi müdafiə vasitələrinin mövcud olmasının vacibliyi son dövrlərdə xüsusilə vurğulanmışdır,[4] belə ki, bu məsələ yeganə problem olmasa da, Məhkəməyə çoxsaylı şikayət ərizələri verilməsinə səbəb olan problemlərdən biridir.

3. Məhkəməyə verilən şikayət ərizələrinin sayı daim artmaqdadır. Bu vəziyyət sistemin uzunmüddətli səmərəliliyinə xələl gətirir və buna görə də Razılığa gələn Tərəflərin ciddi reaksiyasını tələb edir.[5] Məhz bu kontekstdə səmərəli daxili hüquqi müdafiə vasitələrinin mövcudluğu xüsusi əhəmiyyət kəsb edir. Mövcud daxili hüquqi müdafiə vasitələrinin təkmilləşdirilməsi, çox güman ki, Məhkəmənin iş yükünə kəmiyyət və keyfiyyət baxımından təsir göstərəcək:

– bir tərəfdən, baxılmalı olan ərizələrin həcmi azaldılmalıdır: ölkədaxili orqanlar tərəfindən şikayətlər kifayət qədər hərtərəfli araşdırılarsa, daha az ərizəçi öz işini Məhkəməyə təqdim etmək məcburiyyətində qalacaq;

– digər tərəfdən, daxili hüquqi müdafiə vasitələrinin təkmilləşdirilməsi sayəsində işlərin mahiyyəti üzrə araşdırılması öncə ölkədaxili orqan tərəfindən aparılıbsa, Məhkəmə tərəfindən şikayət ərizələrinə baxılması asanlaşmış olacaq.

4. Buna görə də, bu Tövsiyədə üzv dövlətlər Məhkəmənin presedent hüququnun işığında öz hüquq sistemlərini nəzərdən keçirməyə və zərurət olarsa, 13-cü maddə ilə təmin edilən səmərəli hüquqi müdafiə vasitələrinib mövcudluğunu özlərinin qanunvericilik və ya presedent hüququ vasitəsilə təmin etmək üçün zəruri və məqsədəuyğun tədbirlər görməyə təşviq edilirlər. Bu cür nəzərdən keçirmə müntəzəm qaydada və ya Məhkəmənin qərarından sonra həyata keçirilə bilər.

5. Üzv dövlətlərin hökumətləri təkmilləşdirmələrin təklif edilməsi məqsədilə konkret sahələrdə mövcud daxili hüquqi müdafiə vasitələrinin səmərəliliyinin öyrənilməsi üçün ilk öncə ekspertlərə müraciət edə bilərlər. İnsan hüquqlarının təşviqi və müdafiəsi üzrə milli institutlar, eləcə də qeyri-hökumət təşkilatları da bu işdə faydalı şəkildə iştirak edə bilər. Daxili hüquqi müdafiə vasitələrinin mövcudluğu və səmərəliliyi daim nəzarətdə saxlanılmalı və xüsusilə Konvensiyada nəzərdə tutulmuş hüquq və azadlıqlara təsir edən qanunvericilik layihəsi hazırlanarkən yoxlanılmalıdır. Bu Tövsiyə ilə “Qanun layihələrinin, mövcud qanunların və inzibati praktikanın İnsan hüquqları haqqında Avropa Konvensiyasında müəyyən edilmiş standartlara uyğunluğunun yoxlanılmasına dair Tövsiyə” arasında açıq-aydın əlaqə vardır.

6. Yuxarıda qeyd edilənlərlə əlaqədar olaraq, aşağıdakı mülahizələr nəzərə alına bilər.

---

[4] *Kudla Polşaya qarşı* iş üzrə 26 oktyabr 2000-ci il tarixli qərar.

[5] Bax: Avropa Şurası Nazirlər Komitəsinin 14 may 2003-cü il tarixli Bəyannaməsi: “Avropa İnsan Hüquqları Məhkəməsinin uzunmüddətli səmərəliliyinin təmin edilməsi”.

**Konvensiya ölkədaxili hüquqi sisteminin tərkib hissəsi kimi**

7. Səmərəli hüquqi müdafiə vasitəsinin mövcudluğu üçün əsas tələb Konvensiya hüquqlarının milli hüquq sistemi çərçivəsində təmin edilməsidir. Bu kontekstdə Konvensiyanın indi bütün iştirakçı dövlətlərin daxili qanunvericiliklərinin ayrılmaz hissəsinə çevrilməsi sevindirici haldır. Bu inkişaf sayəsində səmərəli hüquqi müdafiə vasitələrinin mövcudluğu sahəsində vəziyyət yaxşılaşmışdır. Bundan əlavə, məhkəmələrin və icra hakimiyyəti orqanlarının daxili qanunvericiliyin tətbiqi zamanı Məhkəmənin presedent hüququna getdikcə daha çox riayət etməsi və bilavasitə öz dövlətlərinə aid olan işlərdə Məhkəmənin qərarlarına əməl etmək öhdəliyini (bax: Konvensiyanın 46-cı maddəsi) dərk etməsi də buna kömək edir. Bu tendensiya, *Rec(2000)2* saylı Tövsiyəyə[6] uyğun olaraq, səlahiyyətli ölkədaxili orqanların Məhkəmə tərəfindən müəyyən edilmiş pozuntuların səbəbi olan bəzi işlər üzrə icraatları bərpa etməsi və ya belə işlərə yenidən baxması imkanlarının yaxşılaşdırılması ilə güclənmişdir.

8. Daxili hüquqi müdafiə vasitələrinin təkmilləşdirilməsi həmçinin əlavə tədbirlərin görülməsini tələb edir ki, bu da milli hakimiyyət orqanlarının milli qanunvericiliyi tətbiq edərkən Konvensiyanın tələblərini və xüsusən də öz dövlətləri ilə bağlı Məhkəmənin qərarlarından irəli gələn tələbləri nəzərə almasına imkan yaradır. Bu, xüsusilə Məhkəmənin presedent hüququnun dərc olunması və yayılması işinin (zəruri hallarda müvafiq dövlətin milli dil(lər)inə tərcümə edilməklə) və hakimlərin və digər dövlət məmurlarının bu tələblərlə bağlı hazırlığının yaxşılaşdırılması deməkdir. Beləliklə, hazırkı Tövsiyə həm də Nazirlər Komitəsinin bu məsələlər üzrə qəbul etdiyi digər iki tövsiyə ilə sıx bağlıdır.[7]

**Konkret hüquqi müdafiə vasitələri və ümumi hüquqi müdafiə vasitəsi**

9. Konvensiyanın pozulmasına qarşı təsis edilən əksər daxili hüquqi müdafiə vasitələri konkret əhatə dairəsinə malikdir. Təcrübə göstərir ki, düzgün şərh və tətbiq edildiyi təqdirdə bu cür "konkret hüquqi müdafiə vasitələri" sistemi çox səmərəli ola və həm Məhkəməyə təqdim edilən şikayətlərin sayını, həm də uzun çəkən araşdırma tələb edən işlərin sayını azalda bilər.

10. Bəzi dövlətlər həmçinin mövcud konkret hüquqi müdafiə vasitələri ilə həll edilə bilməyən şikayətlərə baxılması üçün istifadə oluna bilən ümumi müdafiə vasitəsi təqdim edirlər (məsələn, Konstitusiya Məhkəməsinə müraciət). Bəzi üzv dövlətlərdə bu ümumi hüquqi müdafiə vasitəsi digər hüquqi müdafiə vasitələri ilə paralel olaraq və ya hətta həmin vasitələr tükənməzdən əvvəl həyata keçirilə bilər. Bəzi üzv dövlətlər mübahisələndirilən tədbirin konstitusiya hüquqlarını kobud şəkildə pozması və şikayətə baxmaqdan imtinanın şikayətçi üçün ciddi və sonradan düzəldilə bilməyən nəticələrə səbəb olması tələbini ümumi vasitədən istifadə üçün əlavə şərt kimi müəyyən edirlər. Qeyd etmək lazımdır ki, belə ümumi hüquqi müdafiə vasitələrinə malik olan dövlətlərdən Məhkəməyə adətən daha az iş daxil olur.

11. Bununla belə, öz konstitusiya ənənələrini və konkret şəraiti nəzərə alaraq Konvensiya hüquqlarının zəruri müdafiəsini təmin etmək üçün hansı sistemin ən uyğun olduğuna dair qərar vermək üzv dövlətlərin öhdəsinə düşür.

12. Seçim nə olursa olsun, mövcud təcrübə göstərir ki, bir çox üzv dövlətlərdə daxili hüquqi müdafiə vasitələrinin mövcudluğu və/yaxud səmərəliliyi ilə bağlı çatışmazlıqlar hələ də mövcuddur ki, bunun da nəticəsində Məhkəmənin iş yükü artmış olur.

---

[6] Avropa İnsan Hüquqları Məhkəməsinin qərarlarından sonra ölkədaxili səviyyədə müəyyən işlərə yenidən baxılması və ya icraatın bərpa olunması haqqında Nazirlər Komitəsinin üzv dövlətlərə *Rec(2000)2* saylı Tövsiyəsi, 19 yanvar 2000-ci ildə nazirlərin nümayəndələrinin 694-cü iclasında qəbul edilib.

[7] "İnsan hüquqları haqqında Avropa Konvensiyasının mətninin və Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququnun üzv dövlətlərdə dərc olunması və yayılmasına dair" Nazirlər Komitəsinin üzv dövlətlərə *Rec(2002)13* saylı Tövsiyəsi (18 dekabr 2002-ci ildə nazirlərin nümayəndələrinin 822-ci iclasında qəbul edilib), habelə "Universitet təhsilində və peşə hazırlığında İnsan hüquqları haqqında Avropa Konvensiyasının tədrisinə dair" Nazirlər Komitəsinin üzv dövlətlərə *Rec(2004)4* saylı Tövsiyəsi (12 may 2004-cü ildə Nazirlər Komitəsinin 114-cü sessiyasında qəbul edilib).

**“Pilot” qərardan sonra tətbiq edilən hüquqi müdafiə vasitələri**

13. Milli qanunvericilikdə və ya praktikada struktur xarakterli və ya ümumi çatışmazlıqları müəyyən edən qərar (“pilot qərar”) qəbul edildikdə və Məhkəmənin icraatına eyni problemlə bağlı çoxlu sayda ərizələr (“təkrarlanan şikayətlər”) verildikdə və ya verilməsi ehtimalı olduqda, cavabdeh dövlət potensial ərizəçilərin müvafiq hallarda səlahiyyətli milli orqana müraciət etmələrinə imkan verən səmərəli hüquqi müdafiə vasitəsinə malik olmasını təmin etməlidir ki, bu da cari ərizəçilərə də şamil oluna bilər. Belə operativ və səmərəli hüquqi müdafiə vasitəsinin mövcudluğu, Konvensiya sisteminin subsidiarlığı prinsipinə uyğun olaraq, onların milli səviyyədə kompensasiyaya nail olmasına imkan yaratmış olar.

14. Belə bir daxili hüquqi müdafiə vasitəsinin tətbiqi Məhkəmənin iş yükünü əhəmiyyətli dərəcədə azalda bilər. Pilot qərarın operativ icrası struktur probleminin həlli və beləliklə, eyni məsələ ilə bağlı gələcək müraciətlərin qarşısının alınması üçün vacib olaraq qalmasına baxmayaraq, bu problem həll edilməmişdən əvvəl artıq bu problemin təsirinə məruz qalmış insanlar kateqoriyası mövcud ola bilər. Bu kateqoriyadan olan insanlar üçün milli səviyyədə kompensasiyanın təmin edilməsinə yönəlmiş hüquqi müdafiə vasitəsinin mövcudluğu Məhkəmənin onları yeni hüquqi müdafiə vasitəsinə müraciət etməyə dəvət etməsinə və lazım gəldikdə onların müraciətlərini qəbuledilməz elan etməsinə imkan verə bilər.

15. Digər məsələlərlə yanaşı, sözügedən struktur probleminin xarakterindən və bu problemin təsirinə məruz qalan şəxsin Məhkəməyə müraciət edib-etməməsindən asılı olaraq, bu məqsəd üçün bir neçə variant mümkündür.

16. Xüsusilə, konkret struktur probleminin aşkar edildiyi pilot qərara əlavə olaraq, xüsusi yanaşmanın qəbul edilməsi alternativ variant ola bilər ki, bu yolla maraqlı dövlət konkret hüquqi müdafiə vasitəsinin tətbiqinin və ya mövcud hüquqi müdafiə vasitəsinin qanunvericilik və ya məhkəmə şərhi vasitəsilə genişləndirilməsinin məqsədəuyğunluğunu qiymətləndirə bilər.

17. İşlərin bu cür fərdi qaydada araşdırılması çərçivəsində dövlətlər, əgər məqsədəuyğun hesab edilərsə, Konvensiyanın pozulduğunu müəyyən etmiş pilot qərar üzrə icraatda olduğu kimi, Məhkəməni bu işlərlə məşğul olmaqdan xilas etmək və lazım gəldikdə maraqlı şəxs üçün kompensasiyanı daha tez təmin etmək məqsədilə icraatların yenidən başlanması imkanını nəzərdə tuta bilərlər. Nazirlər Komitəsinin *Rec(2000)2* saylı Tövsiyəsində müəyyən edilmiş meyarlar bu baxımdan istinad mənbəyi ola bilər.

18. Pilot qərarın qəbulundan sonra konkret hüquqi müdafiə vasitələri təsis edildikdə, hökumətlər Məhkəməni tezliklə məlumatlandırmalıdır ki, o, təkrarlanan sonrakı işlərə baxarkən onları nəzərə ala bilsin.

19. Bununla belə, Məhkəmənin qərarı ilə struktur probleminin müəyyən edildiyi hər bir işdən sonra yeni hüquqi müdafiə vasitələri təsis etmək və ya mövcud hüquqi müdafiə vasitələrinin qüvvəsini müəyyən dərəcədə geriyə şamil etmək zəruri və ya məqsədəuyğun olmaya bilər. Müəyyən hallarda, xüsusən də qanunvericiliyə dəyişikliklər qəbul edilənə qədər ərizəçinin daxili hüquqi müdafiə vasitələrini yenidən tükəndirmək məcburiyyətində qalmasına yol verməmək üçün işlərə baxılmasını Məhkəmənin öhdəsinə buraxmaq daha məqsədəuyğun ola bilər.

**Məhkəmə icraatının əsassız olaraq uzun sürdüyü barədə əsaslı iddia irəli sürüldüyü halda tətbiq edilən hüquqi müdafiə vasitələri**

20. Səmərəli hüquqi müdafiə vasitələri məsələsi məhkəmə icraatının əsassız olaraq uzun sürdüyü barədə əsaslı iddiaların irəli sürüldüyü və nəticədə Məhkəməyə çoxlu sayda şikayət ərizələrinin daxil olduğu hallarda xüsusilə aktualdır. Belə ki, Məhkəmə *Kudla Polşaya qarşı* iş üzrə 26 oktyabr 2000-ci il tarixli qərarında vurğulamışdır ki, Konvensiyanın 13-cü maddəsinin tələb etdiyi kimi, belə işlərdə səmərəli hüquqi müdafiə vasitəsinin mövcudluğunu təmin etmək vacibdir. Məhkəmənin bu qərarının nəticəsi olaraq, bu sahədə pozuntuların aşkar edilməsinə və adekvat kompensasiyanın təmin edilməsinə imkan verən səmərəli hüquqi müdafiə vasitələrini təmin etmək üçün üzv dövlətlər tərəfindən bir sıra həll yolları təklif edilmişdir.

*İcraatın ağlabatan müddəti*

21. Öz milli qanunvericiliklərində bir çox üzv dövlətlər müxtəlif vasitələrlə (icraatın maksimum müddətinin müəyyən edilməsi, icraatın sürətləndirilməsi üçün vəsatət vermək imkanı) məhkəmə icraatının müddətinin ağlabatan olmasını təmin edirlər. Müəyyən üzv dövlətlərdə cinayət, mülki və inzibati icraatlarda hər bir mərhələ üçün maksimum müddət müəyyən edilir. Konvensiyanın üzv dövlətlərin daxili hüquq sistemlərinə inteqrasiyası, xüsusən də 6-cı maddədə nəzərdə tutulmuş ağlabatan müddətdə məhkəmə araşdırması tələbi milli qanunvericiliyin bu tələblərini əlavə olaraq gücləndirir və tamamlayır.

*Gecikmələrin qarşısının alınması, icraatın sürətləndirilməsi*

22. Məhkəmə icraatında, xüsusən də cinayət prosesində müəyyən edilmiş müddətlərə riayət edilmədikdə və ya icraatın əsassız olaraq uzun sürdüyü hesab edildikdə, bir çox üzv dövlətlərin milli qanunvericiliyi maraqlı şəxsin icraatın sürətləndirilməsi üçün vəsatət verə bilməsini nəzərdə tutur. Əgər bu vəsatət qəbul olunarsa, bu, məhkəmənin və ya işdən asılı olaraq prokurorun konkret prosessual hərəkətlər etməli olduğu, məsələn, istintaqa xitam verilməsi və ya məhkəmə baxışının vaxtının təyin edilməsi kimi tədbirlər görməli olduğu müddətin müəyyən edilməsi ilə nəticələnə bilər. Bəzi üzv dövlətlərdə məhkəmələr prosedurun müəyyən tarixədək başa çatdırılmasına qərar verə bilərlər. Konstitusiya Məhkəməsinə müraciət formasında ümumi hüquqi müdafiə vasitəsi mövcud olduqda, şikayət müəyyən hallarda hətta digər daxili hüquqi müdafiə vasitələri tükənməzdən əvvəl verilə bilər.

*Müxtəlif təzminat formaları*

23. Əksər üzv dövlətlərdə istər davam edən, istərsə də başa çatmış icraatlarda əsassız gecikmələrə görə təzminat nəzərdə tutan prosedurlar mövcuddur. Xüsusilə artıq bağlanmış işlərdə geniş şəkildə istifadə edilən təzminat forması maliyyə kompensasiyasıdır. Bəzi hallarda məsul orqan tərəfindən müəyyən edilmiş müddətdə qərarın qəbul edilməməsi ərizədəki tələbin təmin edilmiş hesab edilməsi deməkdir. Cinayət işi üzrə icraat ağlabatan müddəti keçdikdə, bu, daha yüngül cəza təyin edilməsi ilə nəticələnə bilər.

**Səmərəli hüquqi müdafiə vasitələrinin təsis edilməsinə mümkün yardım**

24. Tövsiyədə Avropa Şurasının Baş katibinə tapşırılır ki, Konvensiyanın tələb etdiyi səmərəli hüquqi müdafiə vasitələrinin təsis edilməsi üçün yardım istəyən üzv dövlətlərə lazımi köməkliyin göstərilməsi üçün zəruri resursların ayrılmasını təmin etsin. Bu yardım, məsələn, mövcud daxili hüquqi müdafiə vasitələrinin səmərəliliyini artırmaq məqsədilə məsləhətçi ekspertlər tərəfindən onlarla bağlı sorğuların aparılması formasında ola bilər.